https://doi.org/10.59849/3006-1342.2026.2.93
UOT 94 (479.24)

*Aytən Mircəfər qızı Əliskəndərova*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Kiçik elmi işçi*
*E-mail: aytenceferova2021@gmail.com*
*https://orcid.org/0009-0002-8184-1671*
*Nüşabə Arzu qızı Abbasova*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Böyük laborant*
*E-mail: nusabe.abbasova@internet.ru*
*https://orcid.org/0009-0009-4262-8238*

# GƏNCƏ MEMARLIQ İRSİNDƏ KERAMİKA SƏNƏTİNİN YERİ VƏ ƏHƏMİYYƏTİ

*Gəncə şəhərinin memarlıq tarixində keramika sənəti əsas yeri tutub, şəhərin tikinti mədəniyyətinin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Qeyd olunur ki, keramika materialları qədim dövrlərdən etibarən şəhərin memarlıq mühitinin formalaşmasında əsas əhəmiyyət daşımışdır. Arxeoloji tədqiqatlar Gəncə ərazisində erkən yaşayış məskənlərinin mövcudluğunu və burada tikinti ənənələrinin qədim köklərə malik olduğunu göstərir. Şəhərin zəngin gil yataqları və inkişaf etmiş dulusçuluq ənənələri bişmiş kərpic, kirəmit, kaşı və digər keramika məmulatlarının istehsalına şərait yaratmışdır. Məqalədə Gəncə İmamzadə kompleksi və Comərd Qəssab türbəsi nümunəsində keramika materiallarının memarlıqda həm konstruktiv, həm də dekorativ funksiyaları təhlil edilmişdir. Xüsusilə kaşı sənətinin memarlıqla vəhdəti, şirli keramikanın estetik və texnoloji xüsusiyyətləri diqqətə çatdırılmışdır. XVI–XVII əsrlərdə Gəncənin mühüm keramika istehsalı mərkəzlərindən biri olduğu vurğulanmış, bu ənənənin sonrakı dövrlərdə və müasir mərhələdə də davam etdiyi göstərilmişdir. Tədqiqat keramika sənətinin Gəncə memarlıq irsinin ayrılmaz tərkib hissəsi olduğunu təsdiqləyir.*

*Açar sözlər:* Gəncə, memarlıq, keramika, dulusçuluq, kaşı

## *Giriş*

İlk öncə qeyd etmək yerinə düşər ki, memarlıq insan cəmiyyətinin maddi və mənəvi tələbatlarının məkan mühitində ifadə olunmasının ən mühüm formalarından biridir. O, yalnız tikililərin inşası ilə məhdudlaşmayıb, ictimai münasibətlərin, bədii zövqün və tarixi inkişaf mərhələlərinin göstəricisi kimi çıxış edir. Tarixin müxtəlif dövrlərində memarlıq cəmiyyətin sosial quruluşuna, texniki imkanlarına və dünyagörüşünə uyğun şəkildə formalaşmış, ibtidai yaşayış məkanlarından monumental saray və məbədlərə qədər uzun inkişaf yolu keçmişdir. Bu baxımdan memarlıq həm tarixi irsin bir hissəsi, həm də dövrün ideoloji və estetik dəyərlərini əks etdirən sənət sahəsi kimi qiymətləndirilir [1, s. 430].

Memarlığın Azərbaycan ərazisində təşəkkülünə gəlincə, bu proses insanın ən qədim yaşayış formaları ilə sıx bağlı olmuşdur. Arxeoloji tədqiqatlar göstərir ki, hələ paleolit dövründə insanlar təbii mühitin təsiri altında ilkin tikinti vərdişlərinə yiyələnmiş, əllərinin altında olan daş, ağac və heyvan sümüklərindən istifadə etməklə sadə sığınacaqlar yaratmışlar. Bu sığınacaqlar yalnız qoruma məqsədi daşımamış, eyni zamanda məkanın planlaşdırılması və yaşayış mühitinin təşkili baxımından memarlığın ilkin formaları kimi çıxış etmişdir. Qarabağ, Qazax, Kəlbəcər və Naxçıvan ərazilərində tapılan mağara düşərgələri göstərir ki, qədim insanlar məkan anlayışına malik idilər. Onlar kollektiv yaşayış üçün süni

qurğular inşa etmişlər. Bu faktlar Azərbaycanda memarlığın tarixi köklərinin çox qədim dövrlərə gedib çıxdığını göstərir [5, s. 7].

Azərbaycanın qədim elm və mədəniyyət mərkəzlərindən biri olan Gəncənin memarlıq irsi də Şərq və Qərb üslublarının, eləcə də qədim İslam memarlığı ilə müasir şəhərsalma elementlərinin unikal sintezini özündə əks etdirir. Şəhərdə xüsusilə də orta əsrlərdə inşa edilən tikililərdə bişmiş kərpic, kirəmit və kaşı kimi keramika materiallarından geniş istifadə olunmuşdur. Bu materiallar tikililərin möhkəmliyini təmin etməklə yanaşı, onların görünüşünü də zənginləşdirmişdir. Xüsusilə Gəncə İmamzadə kompleksi və Comərd Qəssab türbəsi kimi abidələr keramika elementlərinin memarlıq mühitində geniş tətbiqini göstərən nümunələrdir.

XVI–XVII əsrlərdə Gəncənin saxsı və kaşı məmulatlarının istehsal mərkəzlərindən biri kimi tanınması bu sahənin şəhər həyatında geniş yayılmasını sübut edir. Müasir dövrdə də keramika və gil əsaslı tikinti materiallarının istehsalının davam etdirilməsi Gəncədə bu ənənənin tarixdən günümüzə qədər uzanan inkişaf xəttinə malik olduğunu göstərir. Beləliklə, keramika sənəti Gəncə memarlığının formalaşmasında vacib rol oynamış və şəhərin tarixi-mədəni irsinin ayrılmaz hissəsinə çevrilmişdir.

Gəncə şəhərində erkən dövrlərdən memarlıq fəaliyyətləri və tikinti ənənələri mövcud olmuşdur. Arxeoloji və tarixşünaslıq tədqiqatları göstərir ki, şəhərin formalaşması qədim dövrlərə gedib çıxır. Görkəmli arxeoloq İ.Cəfərzadənin Gəncə ətrafında apardığı arxeoloji qazıntılar zamanı Neolit dövrünə aid arxeoloji materiallar əldə etməsi bölgədə insanların hələ Daş dövründən etibarən məskunlaşdığını və onu tarixin sonrakı ardıcıl inkişaf proseslərində isə müntəzəm olaraq davam etdiyini söyləməyə əsas vermişdir [6, s. 139].

Gəncə şəhərinin qədim yaşayış mərkəzlərindən biri kimi formalaşması burada tikinti mədəniyyətinin və sənətkarlıq sahələrinin paralel inkişafını şərtləndirmişdir. Şəhərin əlverişli təbii-coğrafi mövqeyi, gil yataqlarının bolluğu və inkişaf etmiş sənət ənənələri memarlıq ilə dulusçuluq sənəti arasında qarşılıqlı əlaqələrin yaranmasına zəmin yaratmışdır. Arxeoloji qazıntılar zamanı əldə olunan tikinti materialları və saxsı məmulatlar göstərir ki, keramika istehsalı yalnız məişət tələbatlarını ödəmək məqsədi daşımamış, həm də memarlıq mühitinin formalaşmasında mühüm rol oynamışdır. Keramika məmulatlarının keyfiyyəti birbaşa istifadə olunan gil xammalının fiziki və kimyəvi xüsusiyyətlərindən asılı idi. Gilin plastiklik dərəcəsi onun formaya salınmasını asanlaşdırsa da, quruma və bişirilmə zamanı büzülmə yaradırdı. Buna görə ustalar gil kütləsinə qum, xırdalanmış saxsı (şamot) və digər qatqılar əlavə edərək materialın dayanıqlığını artırır, çatlamanın qarşısını alırdılar [2, s. 56].

Qədim və orta əsr Gəncəsində inşa edilən yaşayış və ictimai binalarda bişmiş kərpicdən, kirəmitdən və müxtəlif keramika elementlərindən geniş istifadə olunmuşdur. Bu materiallar tikililərin möhkəmliyini artırmaqla yanaşı, onların estetik görünüşünün zənginləşdirilməsinə də xidmət etmişdir. Xüsusilə orta əsr memarlığında fasadların bəzədilməsində, günbəz və divar örtüklərində keramika detallarına rast gəlinməsi şəhərdə dulusçuluq sənətinin memarlıqla üzvi şəkildə bağlı olduğunu sübut edir. Yüksək temperaturda bişirilmiş keramika materialları sıxlaşaraq daşvari möhkəmlik alırdı ki, bu da onların atmosfer təsirlərinə qarşı davamlılığını artırırdı. Bu xüsusiyyət xüsusilə dam örtüklərində istifadə olunan kirəmitlər və fasad üzlüklərində tətbiq edilən bişmiş kərpic üçün mühüm idi.

Qədim və orta əsr Gəncəsində keramika materiallarının memarlıqda geniş tətbiqi özünü xüsusilə monumental dini tikililərdə daha aydın şəkildə göstərmişdir. Bu baxımdan Gəncə ərazisində yerləşən İmamzadə türbəsi diqqəti cəlb edən əsas abidələrdən biridir. Azərbaycanda "Gəncə İmamzadəsi" kimi məşhur olan bu türbə qədim Gəncə ərazisində yerləşir. Tədqiqatçıların fikrincə, türbə imam Məhəmməd Baqirin VIII əsrdə vəfat etmiş oğlu İbrahimin məzarı üzərində inşa edilmişdir. Qırmızı kərpicdən, Arran memarlıq məktəbi ənənələrinə uyğun olaraq XIV–XV əsrlərdə tikilmiş və hündürlüyü 12 metrə çatan bu türbə

zamanla geniş dini-memarlıq kompleksinin mərkəzinə çevrilmişdir. Kompleksə məscidlər, təkyələr, hovuz, karvansara tipli tikililər, məzarlıq və digər yardımçı binalar daxildir ki, bu da onun təkcə yerli deyil, ümumilikdə müsəlman Şərqində nüfuzlu ziyarətgah kimi formalaşmasına səbəb olmuşdur.

Kompleksin memarlıq kompozisiyasında əsas rolu xalq arasında "Göy günbəz", "Göy məscid" və ya "Göy imam" kimi tanınan türbə oynayır. Bu ad günbəzin mavi şirli kaşılarla üzlənməsi ilə bağlıdır. Kaşıların üzərinin şirlə örtülməsi onların səthində şüşəvari qoruyucu təbəqə yaradırdı. Bu təbəqə dekorativ parıltı verir, keramikanı rütubətdən və temperatur dəyişmələrindən qoruyurdu. Şir qatının tətbiqi memarlıq keramika sənətində həm texnoloji, həm də estetik yenilik hesab olunur. Kaşıların mavi rəngi əsasən kobalt tərkibli metal oksidlərinin şir qatına əlavə olunması ilə əldə edilirdi. Bu isə göstərir ki, yerli ustalar yalnız formaya deyil, həm də keramikanın kimyəvi tərkibinə və rəng texnologiyasına bələd olmuşlar.

Qeyd etmək lazımdır ki, türbənin silindr hissəsinin sərhəd yarısında yerləşən kufi xətli kitabə tam əhatə etmişdir. Bu kitabə türbənin XIV əsrin əvvəllərində inşa olunduğunu bir daha təsdiqləyir [8, s. 155]. Burada kaşı sənətinin memarlıqla sintezi özünün yüksək bədii ifadəsini tapmışdır. Diametri 4,4 metrə çatan əsas günbəz və ətrafdakı çoxsaylı hücrə günbəzləri kompleksin siluetini formalaşdırır. Hücrələrin interyerində yerləşən, ağ və mavi şirli kaşılardan hazırlanmış mehrablar Gəncədə keramika bəzək sənətinin inkişaf səviyyəsini əks etdirən mühüm nümunələrdir. Beləliklə, Gəncə İmamzadə kompleksi XVI–XVII əsrlərdə şəhərdə inkişaf etmiş kaşı istehsalının memarlıq mühitində tətbiqini göstərən əsas abidələrdən biri kimi çıxış edir və Gəncənin həm memarlıq, həm də dulusçuluq tarixində xüsusi yer tutur. Qeyd edək ki, kompleks 2010–2016-cı illərdə əsaslı bərpa olunmuşdur [6, s. 63].

Gəncə İmamzadə kompleksində müşahidə olunan memarlıq və kaşı sənətinin vəhdəti Azərbaycan memarlığında lokal hadisə deyildir. Bu ənənənin daha erkən və yetkin nümunələrindən biri Naxçıvan memarlıq məktəbinin şah əsəri olan Möminə Xatun türbəsində (XII əsr) özünü göstərir. Bildiyimiz kimi həmin abidədə də, bişmiş kərpic memarlıq forması firuzəyi və tünd rəngli şirli kaşı ornamentləri ilə tamamlanmış, keramika bəzəyi memarlıq səthinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Lakin Gəncə İmamzadə kompleksindən fərqli olaraq, Möminə Xatun türbəsində kaşı bəzəyi daha çox memarlıq plastikasını və həcm ritmini vurğulayan ornamental sistem kimi çıxış edir. Burada kaşı elementləri kərpic hörgü ilə birlikdə fasadın kompozisiya quruluşunu formalaşdırır, kitabə zolaqları və həndəsi ornamentlər tikilinin vertikal təsirini gücləndirir. Gəncə İmamzadə kompleksində isə kaşı əsasən günbəz və interyer bəzəyində daha yumşaq, səthi-estetik xarakter daşıyır [11].

Gəncə ərazisində keramika əsaslı tikinti materiallarının tətbiqini əks etdirən digər mühüm nümunələrdən biri Comərd Qəssab türbəsi hesab olunur. Türbə Gəncə çayının sağ sahilində, qədim şəhər divarlarına yaxın ərazidə yerləşir. Abidənin inşa tarixi barədə müxtəlif fikirlər mövcuddur və tədqiqatçılar tərəfindən onun VII–VIII əsrlərə, bəzi mənbələrdə isə XI–XII və ya XVII–XVIII əsrlərə aid edildiyi göstərilir. Ehtimal olunur ki, ilkin tikili 1139-cu il Gəncə zəlzələsi zamanı ciddi zərər görmüşdür və sonradan yenidən bərpa olunmuşdur. Abidə 1940-cı ildə arxeoloq İshaq Cəfərzadə tərəfindən aparılmış qazıntılar nəticəsində üzə çıxarılmışdır. Comərd Qəssab haqqında tarixi mənbələrdə geniş məlumat verilməsə də, xalq yaddaşında onun ədalətli və dürüst bir şəxs kimi tanındığı qeyd olunur. Rəvayətlərdə onun əti tərəzisiz satması və "Əli eşqinə nə artıq alaram, nə əskik verərəm" deyimi ilə yadda qalması göstərilir [7, s. 29].

Memarlıq baxımından türbə səkkizguşəli plan quruluşuna malikdir və bişmiş kərpicdən, gəcdən hazırlanmış məhlul vasitəsilə inşa edilmişdir. Bu xüsusiyyət bir daha göstərir ki, Gəncədə kərpic memarlığı yalnız monumental dini komplekslərlə məhdudlaşmamış, həm də xalq səviyyəli ziyarətgah və qəbirüstü abidələrdə tətbiq olunmuşdur. Türbənin müstəqillik illərində – 2004-cü ildə yenidən bərpa olunması isə onun tarixi-mədəni əhəmiyyətinin müasir

dövrdə də qorunub saxlanıldığını göstərir. Beləliklə, Comərd Qəssab türbəsi Gəncə memarlıq mühitində keramika əsaslı tikinti materiallarının sosial baxımdan daha geniş təbəqələrə aid abidələrdə də istifadə olunduğunu nümayiş etdirən əsas nümunə kimi çıxış edir.

XVI-XVII əsrlərdə Gəncə artıq Azərbaycanın saxsı və kaşı məmulatlarının istehsal mərkəzlərindən biri kimi tanınmışdır. Bu məmulatlar yalnız məişət əşyalarında deyil, eyni zamanda şəhərin memarlıq abidələrinin bəzədilməsində geniş istifadə olunmuş, şəhərin memarlıq simasında dulusçuluq ənənələrinin sirayət etməsinə gətirib çıxarmışdır [8, s. 73].

Gəncədə istehsal olunan saxsı məmulatların bir qismi məhz tikinti məqsədləri üçün hazırlanmışdır. Bişmiş kərpic, kirəmit, su boruları, dekorativ piltələr və memarlıq relyefləri yerli ustaların həm texnoloji, həm də bədii səviyyəsinin yüksək olduğunu göstərir. Bu isə sübut edir ki, keramika istehsalı şəhər memarlığının ayrılmaz tərkib hissəsinə çevrilmiş, tikinti ənənələrinin inkişafında mühüm rol oynamışdır.

XIX əsrin sonlarından etibarən Azərbaycanda, o cümlədən Gəncə bölgəsində ənənəvi dulusçuluq və keramika istehsalında müəyyən zəifləmə müşahidə olunmağa başlamışdır. Orta əsrlər üçün səciyyəvi olan şirli keramika məmulatlarının hazırlanması əvvəlki geniş miqyasını itirmiş, sənətkarlıq istehsalı tədricən azalaraq daha çox məhdud ustaxanalar çərçivəsində davam etdirilmişdir. Bu proses memarlıq bəzəklərində istifadə olunan keramika elementlərinin də əvvəlki dövrlərlə müqayisədə azalmasına təsir göstərmişdir. Buna baxmayaraq, Gəncə və Quba kimi sənətkarlıq mərkəzlərində dulusçuluq ənənəsi tamamilə aradan qalxmadan müəyyən qədər qorunub saxlanılmışdır [9, s. 131].

Gəncədə hazırlanmış saxsı məmulatların bir hissəsi məhz tikinti məqsədləri üçün istehsal edilirdi. Bişmiş kərpic, kirəmit, su boruları, dekorativ plitələr və müxtəlif memarlıq relyefləri yerli ustaların həm texnoloji biliklərinin, həm də bədii zövqünün yüksək səviyyədə olduğunu göstərir. Bu fakt sübut edir ki, keramika istehsalı şəhər memarlığının inkişafında əsas rol oynayan sahələrdən biri olmuşdur.

Gəncədə keramika və gil əsaslı tikinti materiallarının istehsalı ənənəsi yalnız tarixi dövrlərlə məhdudlaşmamış, XX əsrdə də müəyyən dərəcədə davam etdirilmişdir. Xüsusilə XX əsrdə sənayeləşmə prosesinin güclənməsi nəticəsində tikinti materiallarının istehsalı daha çox sənaye müəssisələri çərçivəsində təşkil olunmağa başlamışdır. Bu prosesin davamı olaraq XXI əsrin əvvəllərində şəhər ərazisində kərpic istehsalı ilə məşğul olan yeni sənaye müəssisələrinin yaradılması regionda tikinti materiallarına olan tələbatın yerli xammal hesabına ödənilməsi imkanlarını genişləndirmişdir. Bu fakt Gəncədə keramika istehsalının qədim sənətkarlıq ənənələrindən başlayaraq sənaye mərhələsinə qədər uzanan inkişaf xəttinə malik olduğunu göstərir.

Gəncədə keramika və gil əsaslı tikinti materialları istehsalı ənənəsi tarixi dövrlərlə məhdudlaşmamış, müasir mərhələdə də davam etdirilmişdir. XXI əsrin əvvəllərində şəhər ərazisində kərpic istehsalına yönəlmiş yeni sənaye müəssisəsinin yaradılması bu sahənin tarixi ənənələrinin müasir istehsal formalarında yaşadıldığını göstərir. Mətbuat məlumatlarında qeyd olunduğu kimi, bu tip müəssisələrin fəaliyyətə başlaması regionda tikinti materiallarına olan tələbatın yerli xammal əsasında ödənilməsi imkanlarını genişləndirmişdir. Bu fakt Gəncədə keramika istehsalının qədim sənətkarlıq səviyyəsindən sənaye mərhələsinə qədər uzanan davamlı inkişaf xəttinə malik olduğunu göstərən müasir göstəricilərdən biri kimi qiymətləndirilə bilər [10].

Gəncə memarlığında keramika materialları yalnız konstruktiv məqsədlərlə məhdudlaşmamış, eyni zamanda bədii-dekorativ funksiyalar daşımışdır. Şəhərin tarixi memarlıq mühitində binaların fasadlarında, divar səthlərində və memarlıq detallarında istifadə olunan keramika elementləri tikililərə qədimlik və ənənəvi görünüş qazandırmışdır. Bu cür dekorativ tətbiqlər memarlıq kompozisiyasının estetik ifadə vasitələrindən biri kimi çıxış etmişdir.

*Nəticə*

Beləliklə, aparılan araşdırma göstərir ki, keramika sənəti Gəncə şəhərinin memarlıq irsinin formalaşmasında əsas rol oynamışdır. Qədim və orta əsrlərdə şəhərdə bişmiş kərpic, kirəmit və kaşı kimi keramika materiallarının geniş tətbiqi tikinti ənənələrinin inkişaf etdiyini və dulusçuluq sənətinin memarlıqla sıx bağlı olduğunu göstərir. Gəncə İmamzadə kompleksi və Comərd Qəssab türbəsi kimi abidələr keramika materiallarının memarlıq mühitində istifadə olunmasını əks etdirən nümunələrdir. Bu faktlar sübut edir ki, keramika sənəti Gəncə memarlığının mühüm tərkib hissəsi olmuş və şəhərin tarixi-mədəni simasının formalaşmasına təsir göstərmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Sovet Ensiklopediyası , VI cild, Bakı 1982, 608 s.
2. Ağayev E., Məmmədov F. Bədii keramika sənəti (Texniki və estetik xüsusiyyətləri) Bakı, 2025, 79 s.
3. Əfəndi R. Azərbaycan dekorativ-tətbiqi sənətləri. Bakı, 1976, 190 s.
4. Əhmədov F. Gəncənin tarixi yaddaşı, “Elm”, 2007, 244 s.
5. Məmmədova G., Hacıyeva S. Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı. Bakı, 2013, 263 s.
6. Məmmədov A. Arxeologiya və etnoqrafiya. “Gəncə”, 2008, 237 s.
7. Mərdənov M. Gəncə abidələri. “Ankara”, 2022, 234 s.
8. Nemət. M. Azərbaycanda Pirlər. Bakı, “Elm və təhsil”, 2010, 209 s.
9. Talıbova G., Abbasova N. Gəncə qədim dulusçuluq mərkəzlərindən biri kimi “ Gəncə incəsənəti ” mövzusunda Respublika elmi konfransının materialları / Gəncə 2025, 130 – 134 s.
10. https://az.trend.az/azerbaijan/politics/820874.html
11. https://nakhchivan.preslib.az/az_d1.html

УДК 94 (479.24)

*Айтан Мирджафар кызы Алискандарова*
*Нушаба Арзу кызы Аббасова*
*Гянджинское Отделение НАНА*

МЕСТО И ЗНАЧЕНИЕ КЕРАМИЧЕСКОГО ИСКУССТВА В АРХИТЕКТУРНОМ НАСЛЕДИИ ГЯНДЖИ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Гянджа, архитектура, керамика, гончарное дело, изразцы

В архитектурной истории города Гянджи керамическое искусство заняло главное место и сыграло важную роль в формировании строительной культуры города. Отмечается, что керамические материалы с древнейших времен играли важную роль в формировании архитектурной среды города. Археологические исследования показывают существование ранних поселений на территории Гянджи и древние корни строительных традиций. Богатые залежи глины города и развитые традиции гончарного дела создали условия для производства обожженного кирпича, черепицы, изразцов и других керамических изделий. В статье на примере Гянджинского комплекса Имамзаде и гробницы Джомарда Кассаба проанализированы как конструктивные, так и декоративные функции керамических материалов в архитектуре. В частности,

обращено внимание на единство изразцового искусства с архитектурой, эстетическими и технологическими особенностями глазурованной керамики. Подчеркнуто, что Гянджа была одним из важных центров керамического производства в XVI–XVII веках, и показано, что эта традиция продолжилась и в более позднее время, и на современном этапе. Исследование подтверждает, что керамическое искусство является неотъемлемой частью архитектурного наследия Гянджи.

UDC 94 (479.24)

*Aytan Mirjafar Aliskandarova*
*Nushaba Arzu Abbasova*
*Ganja Branch of ANAS*

## THE PLACE AND IMPORTANCE OF CERAMIC ART IN THE ARCHITECTURAL HERITAGE OF GANJA

*SUMMARY*

*Keywords:* Ganja, architecture, ceramics, pottery, tile

In the architectural history of the city of Ganja, ceramic art has occupied an important place and played a significant role in the formation of the construction culture of the city. It is noted that ceramic materials have been important in the formation of the architectural environment of the city since ancient times. Archaeological studies show the existence of early settlements in the territory of Ganja and the ancient roots of building traditions. The city's rich clay deposits and developed pottery traditions created conditions for the production of baked bricks, roof tiles, glazed tiles and other ceramic products. In the article, both the constructive and decorative functions of ceramic materials in architecture were analyzed using the example of Ganja Imamzade complex and Jomard Kassab tomb. In particular, the unity of tile art with architecture, aesthetic and technological features of glazed ceramics have been highlighted. It was emphasized that Ganja was one of the important centers of ceramic production in the 16th–17th centuries, and it was shown that this tradition continued in later times and at the modern stage. The study confirms that ceramic art is an integral part of the architectural heritage of Ganja.

***Daxil oldu: 24.06.2026-cı il***